# ƏN ÇOX VERİLƏN SUALLAR (BAKALAVRİAT QEYDİYYATI)

**Sual 1. Bakalavr səviyyəsinə necə qeydiyyatdan keçməliyəm?**

Ali təhsil müəssisələrinin bakalavr səviyyəsinə qəbul olmuş şəxslər ilk öncə **"portal.edu.az"** saytında qeydiyyatdan keçməlidir. Bunun üçün təhsil portalına daxil olub şəxsi məlumatlarınızı qeyd etməlisiniz. Daha sonra şəxsi kabinetinizdə **"Ali və orta ixtisas təhsili pilləsinə təhsilalan qeydiyyatı"** xidmətini seçib, **"Müraciət et"** düyməsinə sıxmaqla tələb olunan məlumatları daxil etməlisiniz.

**Sual 2. Portalda artıq qeydiyyatım varsa, yenidən sistemdə qeydiyyatdan keçməliyəm?**

Portalda artıq qeydiyyatınız varsa, yenidən qeydiyyatdan keçməyinizə ehtiyac yoxdur. Amma müraciətinizi qəbul olduğunuz müəssisəyə göndərməmisinizsə, mütləq **"Ali və orta ixtisas təhsili pilləsinə təhsilalan qeydiyyatı"** xidmətini seçməklə, müraciətinizi qəbul olduğunuz təhsil müəssisəsinə göndərməlisiniz.

**Sual 3. Sistemə daxil olduqdan sonra hansı xidməti seçməliyəm?**

Sistemə daxil olduqdan sonra **"Ali və orta ixtisas təhsili pilləsinə təhsilalan qeydiyyatını"** xidmətini seçməli və məlumatlarınızı formaya uyğun doldurmalısınız.

**Sual 4. Bakalavriat pilləsinə müraciət etmək üçün hansı qəbul xəttini seçməliyəm?**

Bildiyiniz kimi bakalavriat pilləsinə qəbul yalnız Dövlət İmtahan Mərkəzinin (DİM) imtahanları ilə həyata keçirilir. Əgər siz DİM imtahanları ilə qəbul olmusunuzsa "DİM vasitəsilə", digər hallarda isə (SAT/İB/ADA məktəbi) "Müsabiqədən kənar (DİM vasitəsilə)" seçimini etməlisiniz.

**Sual 5. Şəxsi məlumatlarımı necə daxil etməliyəm?**

Şəxsi məlumatlarınız şəxsiyyət vəsiqənizin FİN-i vasitəsilə avtomatik əks olunur. Yəni, hər hansı məlumatı daxil etməyinizə ehtiyac yoxdur.

FİN-i olmayan əcnəbilər müvafiq sənədi seçməklə təqdim olunan mövcud xanaları əl ilə doldurulmalıdırlar.

**Sual 6. Şəxsi məlumatlarımdakı e-mail və ya mobil nömrə mənə aid deyil, nə etməliyəm?**

Siz qeydiyyatdan keçdiyiniz zaman istifadə etdiyiniz mobil nömrə və ya elektron poçt şəxsi məlumatlarınızda əks olunmuşdur. Bunu 146 xidməti vasitəsilə Təhsil Nazirliyinə bildirməyiniz xahiş olunur.

**Sual 7. Sənədlərimi hansı formatda əlavə edim?**

Eyni sənədin bir neçə səhifəsi varsa, onu skan edərkən, 1 PDF faylda birləşdirərək əlavə etməlisiniz.

**Sual 8. Hansı sənədləri əlavə etməliyəm?**

*İlkin hərbi qeydiyyata alınma haqqında sənəd və ya hərbi biletin surəti (oğlanlar üçün)*

*Sosial statusu təsdiq edən sənədin surəti (əgər varsa)*

Attestatın surəti, şəxsiyyəti təsdiq edən vəsiqənin əsli, ağ fonda 3x4 ölçüdə fotoşəkil və sağlamlıq haqqında arayışın surəti **məcburi sənəd deyildir**. Bu sənədləri yükləməyə ehtiyac yoxdur. Müəssisə tərəfindən tələb olunarsa "Əlavə sənəd (əgər qəbul olduğunuz təhsil müəssisəsi tərəfindən istənilirsə)" xanasına əlavə edilə bilər.

**Sual 9. Sənədlərin hansı xanalara əlavə edilməsi mütləqdir?**

**"Müraciət et"** və ya **"Yadda saxla"** düymələrini sıxdığınız zaman qırmızı rəng alan xanalara tələb olunan sənədi əlavə etməlisiniz.

**Sual 10. Sənədlərimin qəbul edilib-edilmədiyini necə öyrənə bilərəm?**

Müraciətinizə münasibəti şəxsi kabinetinizdə "**Ali və orta ixtisas təhsili pilləsinə təhsilalan qeydiyyatı"** xidmətinə daxil olaraq, **"Ümumi məlumatlar"** səhifəsində Müraciətin statusu bölməsindən öyrənə bilərsiniz. Statuslar dərhal yenilənməyə bilər, çünki müraciət etdiyiniz təhsil müəssisənin müraciəti araşdırması və yoxlaması müəyyən vaxt tələb edir. Həmçinin, qeydiyyatını tamamlayaraq təsdiq etmiş bütün müraciətlərin izlənməsinə nəzarət Təhsil Nazirliyi tərəfindən də, həyata keçirilir.